# Modern Azərbaycan:




# çoxtərəfli strateji inkişaf, yüksələn nüfuz

*Müstəqil Azərbaycanın strateji inkişaf strategiyası çoxşaxəlidir, kompleks istiqamətləri ehtiva edir və dünya miqyasında dinamik inkişaf tempinə malik ölkələr sırasında öncül yerlərdən birini tutur. Bu inkişafın əsasında uğurla, uzaqgörənliklə reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanır. Bu, ölkəmizin yüksələn nüfuzuna yeni stimul verir.*

Azərbaycan bu gün region ölkələri ilə qarşılıqlı əməkdaşlıq, uğurlu tərəfdaşlıq fonunda, həm də dünyanın aparıcı beynəlxalq qurumlarında kifayət qədər fəal iştirak edir. Möhkəm təməl üzərində yaradılan güclü iqtisadi potensial, maliyyə resursları, cəmiyyət həyatının bütün sahələrinin dinamik tərəqqisi, enerji, ərzaq təhlükəsizliyi kimi məsələlərin uğurla həlli Azərbaycana tam müstəqil, milli maraqlara hesablanan xarici siyasət yürütməyə imkan verir. Ölkəmiz beynəlxalq aləmdə artıq etibarlı tərəfdaş kimi tanınır. Xüsusilə son illər ərzində dünyada böhranların, müharibələrin, qeyri-sabit vəziyyətin genişləndiyi bir şəraitdə ölkəmizə daha böyük rəğbətlə yanaşırlar. Azərbaycan son illərdə müxtəlif beynəlxalq platformalara ev sahibliyi edərək qlobal siyasət, iqtisadiyyat, mədəniyyət və təhlükəsizlik məsələlərinin müzakirə olunduğu mühüm mərkəzlərdən birinə çevrilib. Bu tədbirlər ölkənin beynəlxalq nüfuzunun artmasına, diplomatik əlaqələrin genişlənməsinə və qlobal problemlərin həllinə töhfə verməsinə şərait yaradır.

**(davamı 2-ci səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Azərbaycan 120 ölkənin yekdil qərarı ilə dörd il ərzində BMT-dən sonra ikinci ən böyük beynəlxalq qurum olan Qoşulmama Hərəkatına uğurla sədrlik edərək qlobal səviyyədə həmrəylik, bərabərlik və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinə əhəmiyyətli töhfələr vermişdir. Ölkəmiz təxminən 60 dövləti birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Avropa İttifaqının 10 üzvü ilə sazişlər imzalayıb və strateji tərəfdaşlıq haqqında bəyannamələr qəbul edib. Bütün bunlar imkan verir ki, Azərbaycan iqlim dəyişmələri məsələsində fərqli iştirakçılar arasında körpülərin salınmasına yardımçı olsun. Ötən il dekabrın 19-da Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı Azərbaycan Respublikası yekdilliklə həmin qurumun üzvü seçilib. Prezident İlham Əliyevin qətiyyətli və uğurlu xarici siyasətinin məntiqi nəticəsi olan D-8-ə üzvlüyümüz təşkilat yarandığı gündən ilk genişlənmə kimi əlamətdardır.

# Modern Azərbaycan:

## çoxtərəfli strateji inkişaf, yüksələn nüfuz



Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi tarixi hadisə idi. 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək şərəfi verildi. COP29-un Sədri kimi Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr, Qlobal Şimal və Qlobal Cənub arasında ümumi anlaşmaya nail olmaq üçün mühüm təşəbbüslərlə çıxış edib. "Müddətin qısa olmasına baxmayaraq, Azərbaycan COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları həyata keçirməyə nail oldu. Mübaliğəsiz deyə bilərik ki, Bakı COP tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşəcək. Biz 80 dövlət və hökumət başçısının, qeydiyyatdan keçmiş 76 mindən çox iştirakçının qatıldığı COP29-un çox yaxşı təşkil olunması ilə bağlı bütün qonaqlardan yüksək qiymət almaqdan qürur duyuruq". Bu fikirlər Azərbaycan Prezidenti İlham Əliyevin ötən il noyabrın 24-də sosial şəbəkə hesabında "COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir!" sərlövhəsi ilə paylaşımında yer alıb. Dövlət başçısı qeyd edib ki, Bakı nailiyyətini çoxtərəfliliyin təntənəsi kimi qiymətləndirir: "COP29 iqlim diplomatiyasında dönüş nöqtəsidir və inanıram ki, bu irs gələcək qlobal iqlim fəaliyyətinə müsbət təsir göstərəcək". Dünyanın ən əhəmiyyətli və irimiqyaslı beynəlxalq tədbirlərindən olan COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin artan beynəlxalq nüfuzunun bariz nümunəsi, davamlı inkişafa və əməkdaşlığa sadiqliyinin göstəricisidir.

Beynəlxalq və regional təşkilatlarda fəal iştirak edən Azərbaycanın son illər ŞƏT ilə əlaqələri genişlənir. Ölkəmizə dialoq tərəfdaşı statusunun verilməsinə dair qərar təşkilatın 2015-ci ilin iyulunda Ufada keçirilən Zirvə görüşündə qəbul edilib. Mövcud əməkdaşlıq sahələri 2016-cı ildə tərəflər arasında imzalanmış memorandumda öz əksini tapıb. Dünyanın ən böyük regional qurumu kimi ŞƏT üzvü olan ölkələrin Avrasiya ərazisinin təxminən 60, dünya əhalisinin 40, qlobal Ümumi Daxili Məhsulun 25 faizini təmin etdiyini nəzərə alsaq, dünyada cərəyan edən siyasi proseslər, müxtəlif dövlətlər arasında qarşıdurmalar, ikili standartlar fonunda Şanxay Əməkdaşlıq Təşkilatının nə dərəcədə vacib quruma çevrildiyini təsəvvür etmək çətin deyil.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun bölmələri torpaqlarımızı işğaldan azad etdi. Qırx dörd günlük Vətən müharibəsində qazandığımız Zəfər böyük tarixi və siyasi məzmuna, eyni zamanda türk dünyası və ölkəmizin yerləşdiyi region üçün mühüm əhəmiyyətə malikdir. Hər zaman olduğu kimi, haqq savaşımız dövründə də qardaş Türkiyə və Türk Şurası Azərbaycana böyük siyasi və mənəvi dəstək göstərdi. Tarixi qələbə ölkəmiz və regionun inkişafı üçün yeni reallıqlar, yeni regional əməkdaşlıq imkanları yaratdı. Hazırda işğaldan azad edilmiş ərazilərimizdə sürətli bərpa-quruculuq aparılır. Azad edilmiş ərazilərimizin bərpasına türkdilli dövlətlərin şirkətlərinin böyük marağı və bu şərəfli işdə Azərbaycanın yanında olmaq istəyi ölkəmiz tərəfindən yüksək qiymətləndirilir. Azad edilmiş ərazilərimizin bərpası layihələrində və təşəbbüslərin həyata keçirilməsində birgə iştirak ümumi gücümüzü artırmaqla yanaşı, regional tərəfdaşlığı və stabilliyi daha da gücləndirəcək.

Modern Azərbaycanın strateji inkişaf paradiqmaları çoxşaxəlidir və özündə kompleks məsələləri və istiqamətləri ehtiva edir. İqtisadi inkişaf templəri baxımından Azərbaycan dünya liderinə çevrilmişdir, geosiyasi rəqabət meydanında aktiv oyunçu və söz sahibi olaraq dünyada və regionda baş verən proseslərdə fəal şəkildə iştirak edir. Ölkəmiz qlobal səviyyəli tədbirlərə ev sahibliyi etməklə yanaşı, tanınmış media orqanlarının forumlarının keçirildiyi bir məkandır. Ötən il "Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə" mövzusunda 2-ci Şuşa Qlobal Media Forumunun açılışı və Prezident İlham Əliyevin mərasimdə çıxışı dünyanın aparıcı kütləvi informasiya vasitələrinin gündəmində əsas yer tutan xəbərlər oldu.

Dövlət başçısı regionumuzda artıq tarixi transformasiya proseslərinin baş verdiyini və yeni əməkdaşlıq formatlarının meydana gəldiyini xüsusi vurğulayıb. Etnik münaqişə və problemlərin keçmişdə qaldığı, cəmiyyətin hadisə və proseslərə olduqca nikbin yanaşma sərgilədiyi qeyd olunub. Uzun illər dezinformasiya siyasəti, erməni diasporunun apardığı çirkin və həqiqətə uyğun olmayan informasiya müharibəsinə qarşı ölkəmizin mübarizə aparması inkarolunmaz faktdır. Təcavüzkar Ermənistanın deyil, işğala məruz qalan Azərbaycanın beynəlxalq sanksiyalara məruz qalmasının absurdluğu prezidentin çıxışlarında əsas yer tutur. Zaman keçdikcə bəzi siyasi dairələrdə artıq reallığın dərk edildiyi və Azərbaycana tərəfdaş ölkə kimi yanaşılması da vurğulanmalıdır.

Uzun müddət Azərbaycanın xarici siyasəti əsasən keçmiş Qarabağ probleminin həlli üçün əlverişli şəraitin yaradılmasına, ölkənin ərazi bütövlüyünün bərpasına yönəlmişdisə, bu gün ölkəmiz keyfiyyətcə fərqli vəzifələri yerinə yetirir. Belə ki, azad olunmuş ərazilərin bərpası üçün investisiyaların cəlb edilməsi, coğrafi baxımdan yaxın dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın dərinləşdirilməsi və ölkənin dünya siyasətində əhəmiyyətinin artırılması prioritet istiqamətlərdir. Müdrik siyasət, böyük əzm və cəsarət nəticəsində 30 ilə yaxın bir müddətdə işğal altında qalan ərazilərimizin azad olunması bizim üçün milli qürur yeri olmaqla bərabər, həm də dağıdılmış ərazilərin bərpası kimi vacib məsələləri ehtiva edir. Düşmən tapdağından xilas olunmuş şəhər və kəndlərimizin ölkə iqtisadiyyatında müsbət rolunu təmin etmək bərpaolunan enerji sahəsində də prioritetdir.

Azərbaycan Cənubi Qafqaz regionunun lider dövləti kimi bölgənin geosiyasi həyatında təsiredici rol oynayır. Bununla yanaşı, ölkəmizin artan gücü və iqtisadi-siyasi inkişafı onun qlobal əhəmiyyətini getdikcə artırır. İndi Azərbaycana təkcə bölgənin lider dövləti kimi yox, həm də Avrasiya məkanının vacib istinad ölkəsi kimi yanaşılır. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin və enerji daşıyıcılarının ölkəmizdə birləşməsi Azərbaycanın dünyəvi əhəmiyyətini artıran başlıca amillərə çevrilib. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Azərbaycan heç vaxt indiki qədər güclü olmayıb. Ötən 21 ilə nəzər salsaq, görərik ki, dövlətimizin başçısı xalqa verdiyi bütün vədləri yerinə yetirib. Bu müddət ərzində bütün sahələrdə sürətli inkişafa nail olunub, insanların rifah halı daha da yaxşılaşıb, bir çox nəhəng transmilli layihələrə imza atılıb. 2006-cı il iyulun 13-də Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin açılışı oldu və həmin il dekabrın 15-də "Şahdəniz" yatağında ilk quyu istismara verildi. 2014-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 20-ci ildönümündə Səngəçalda Cənub Qaz Dəhlizi layihəsinin təməli qoyuldu. Prezident İlham Əliyevin gərgin və uğurlu fəaliyyəti, ardıcıl səyləri ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərindən sonra Bakı-Tbilisi-Ərzurum, TANAP, TAP kimi transmilli qaz arteriyaları yaradıldı. Bununla da dünya enerji xəritəsində yeni mənzərə formalaşdı. 2017-ci ildə Xəzər dənizinin Azərbaycan sektorundakı Azəri-Çıraq-Günəşli neft yataqları blokunun işlənilməsində yeni dövr başlandı, "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilədək uzadıldı. 2020-ci il dekabrın 31-də isə Cənub Qaz Dəhlizinin son seqmenti olan Trans-Adriatik boru kəmərinin istismara verilməsi ilə Azərbaycan qazının tarixdə ilk dəfə olaraq Avropaya ixracına başlanıldı. Bütün bu irimiqyaslı neft-qaz layihələri ilə yanaşı, Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin və Ələt Azad İqtisadi Zonasının açılışı ilə Azərbaycan və Bakı regionun ən böyük ticarət və logistika habına, Şimal-Cənub, Şərq-Qərb və Orta Dəhliz nəqliyyat marşrutlarının mərkəzinə çevrildi. Bu və digər layihələr ölkəmizə həm iqtisadi, həm də siyasi dividendlər qazandırır.

Bölgədə sabitliyin başlıca şərtləri olan birgə fəaliyyətin əsasını Xəzəryanı dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, müstəqilliyinə hörmət və bir-birinin daxili işlərinə qarışmamaq prinsipləri təşkil edir. Region ölkələri xalqlarının rifahının yüksəldilməsinə yönəlmiş bir çox beynəlxalq və regional layihələrin əsasını da qarşılıqlı faydalı iqtisadi əməkdaşlığın inkişafı, investisiya mühitinin yaxşılaşdırılması, etibarlı və təhlükəsiz kommunikasiyaların qurulması, yüksək rentabelli və ekoloji təmiz texnologiyaların cəlb edilməsi üçün əlverişli şəraitin yaradılması istiqamətində birgə çalışmaq niyyəti təşkil edir. Xəzəryanı ölkələrin nəqliyyat infrastrukturunun genişlənməsi, xidmətlərin və daşımaların keyfiyyətinin yaxşılaşdırılması üçün mühüm mənbədir. Dənizin sahillərində salınmış limanlardan istifadə qabiliyyətinə görə Azərbaycan Avrasiyanın mühüm nəqliyyat və logistika mərkəzlərindən biridir.

Prezidentimizin gələcəyə hesablanmış müdrik siyasəti təbii ki, ilk növbədə, Azərbaycan dövlətinin iqtisadi-siyasi sistemini daha da möhkəmləndirir. İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin tərəfdaşlığı nəqliyyat və logistika sahəsində, yükdaşımaların daha səmərəli təşkili istiqamətində də öz müsbət nəticələrini verir. Şimal-Cənub Nəqliyyat Dəhlizinin ötürücülük qabiliyyətinin genişləndirilməsi üzərində çalışan Azərbaycan regional məsələlərdə təşəbbüskarlığını davam etdirərək əlaqələrin şaxələnməsinə maraqlı olduğunu nümayiş etdirir. "3+3" formatında əməkdaşlıq təklifi də Şərqdən Qərbə daha sərfəli şərtlərlə yükdaşımaların həyata keçirilməsinə şərait yaradacaq. Önəmli başlanğıclardan biri də Bakı ilə Tehran arasında İran ərazisi vasitəsilə Azərbaycandan Naxçıvan Muxtar Respublikasına çıxış imkanı yaradacaq avtomobil və dəmir yolunun çəkilməsi barədə razılığın əldə olunmasıdır. Bu təşəbbüsün gerçəkləşdirilməsi region ölkələri arasındakı iqtisadi bağı möhkəmləndirəcək. Qlobal və regional çağırışlar kollektiv çoxtərəfli tədbirlərin görülməsinin vacibliyini ortaya qoyur və bu mənada SPECA-nın fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Mərkəzi Asiya regionu ilə əməkdaşlığımız təkcə bizim üçün deyil, digər ölkələr üçün də faydalı olacaq. Özbəkistan tərəfindən Füzuli şəhərində tikilib istifadəyə verilmiş məktəb və Qazaxıstanın inşa etdiyi yaradıcılıq mərkəzi ECO çərçivəsində iqtisadi əlaqələrlə yanaşı, mənəvi birliyi və dostluğu da nümayiş etdirir. Sülhə, inkişafa tərəfdar olan Azərbaycan üçün bu əməkdaşlığın və təəssübkeşliyin rolu önəmlidir.

Beləliklə, Azərbaycan regional əməkdaşlığın inkişafına göstərdiyi səyləri konkret addımları ilə təsdiqləyir.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika .- 2025. - 8 aprel (№67).- S.1;2.